**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№314/1** **18 noyabr 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının
2020-ci il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq Aparatın rəhbəri Q.Bayramov tərəfindən tərtib edilmiş Auditorlar Palatasının 2020-ci il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).

2. Məsul icraçılara tapşırılsın ki, təsdiq edilmiş planda nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

3. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova və Palatanın icraçı direktoru S.Gülməmmədova tapşırılsın ki, iş planında nəzərdə tutulmuş plan-proqramların 2019-cu ilin dekabr ayı ərzində hazırlanıb təqdim edilməsini təmin etsinlər.

4. Auditorlar Palatasının Şurası yanında Komitələrin rəhbərlərinə tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

5. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Xarici əlaqələr, beynəlxalq təşkilatlarla iş və ictimaiyyətlə əlaqə şöbəsinin müdiri F.Kamalovaya tapşırılsın ki, növbəti ilin I rübü ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planının rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planının Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Şuranın sədri** **Vahid Novruzov**